


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (21.742)

29 aprel 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Sumqayıtda inşa olunan karbamid zavodunda tikinti işlərinin gedişi ilə tanış olub.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev, karbamid zavodunun direktoru Xəyal Cəfərov və "Samsung Engineering" şirkəti tərəfdən layihənin rəhbəri Hansu Kim dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat veriblər.

Dövlətimizin başçısına Sumqayıt sənaye zonasının perspektiv inkişafı ilə əlaqədar qaz təchizatı sisteminin yaradılması haqqında da məlumat verilib.

Sonra Prezident İlham Əliyev ayrı-ayrı inşaat sahələrini gəzib, görülən işlərlə yaxından tanış olub.

Ümumi ərazisi 40 hektara yaxın olan zavod ammonyak, karbamid istehsalı və karbamidin qranulyasiyası sahələrindən ibarət olacaq. Azot gübrələrinin istehsalı üçün əsas xammal qismində təbii qazdan istifadə ediləcək. İstehsal üçün illik qaz sərfiyyatının gündəlik 1,32 milyon kubmetr, ümumilikdə isə 435 milyon kubmetr olması gözlənilir. Zavod gündəlik 1200 ton ammonyak və 2000 ton karbamid istehsal edəcək.

Zavodda tikinti işlərinin gedişi ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzulayıb.

## Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə tədbirlər keçirilib

*Aprelin 28-də Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 94-cü ildönümü münasibətilə tədbir keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə poliklinikanın foyesində Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş guşədə alimin həyat və fəaliyyətini əks etdirən foto və kitablarla, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olublar.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq görkəmli oftalmoloq-alim, bənzərsiz ziyalı, qayğıkeş insan Zərifə Əliyevanın son dərəcə zəngin, mənalı həyat və fəaliyyətinin müxtəlif dövrlərindən bəhs edib.



Naxçıvan Şəhər Poliklinikasının baş həkim əvəzi Tamella Bayramova "Akademik Zərifə xanım Əliyevanın həyatı və elmi fəaliyyəti", Naxçıvan Dövlət Universitetinin Tibbi klinik fənlər kafedrasının müəllimi, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev "Akademik Zərifə xanım Əliyevanın pedaqoji fəaliyyəti", poliklinikanın həkimi Əhməd Seyidov "Akademik Zərifə xanım Əliyeva Azərbaycan oftalmologiya məktəbinin banisidir", Naxçıvan Muxtar Respublika Xəstəxanasının göz həkimi Rəhmiyyə Əliyeva "Akademik Zərifə xanım Əliyevanın həkimlik fəaliyyəti" mövzularında çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alimin adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında ölkə Prezidenti cənab İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir. Akademik Zərifə xanım Əliyevanın keçdiyi həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir. Ömrünü tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparıb.

Vurğulanıb ki, Zərifə xanım Əliyeva bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməyib, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirib.

Sonda Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

***Aprelin 28-də Kəngərli rayonunun Şahtaxtı kənd tam orta məktəbində keçirilən tədbirdən əvvəl iştirakçılar Zərifə xanım Əliyevanın məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, adını daşıyan muzeyə baxıblar.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq görkəmli alim Zərifə Əliyevanın zəngin irsinin böyük əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, Zərifə xanımın böyük zəhməti sayəsində Azərbaycanda oftalmologiya sahəsində mühüm elmi nailiyyətlər qazanılıb. Zərifə xanım Əliyeva ilə bu gün onun doğulub boya-başa çatdığı Şahtaxtı kəndi, təhsil aldığı məktəb, mənsub olduğu xalq qürur hissi keçirir.

Təhsil naziri tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən görkəmli alimin adının əbədiləşdirilməsi diqqətdə saxlanılıb, Naxçıvan Şəhər Poliklinikasına və Naxçıvan şəhərində bir küçəyə Zərifə xanımın adı verilib. Zərifə xanım Əliyevanın dünyaya gəldiyi Şahtaxtı kəndində fəaliyyət göstərən, 309 şagirdin təhsil aldığı məktəb də böyük alimin adını daşıyır. Gələcək perspektivlər nəzərə alınaraq 594 şagird yerlik nəzərdə tutulan təhsil ocağı 2005-ci ildə istifadəyə verilib, bir il sonra əsaslı şəkildə yenidən qurulub. Məktəbdə alimin Xatirə Muzeyi fəaliyyət göstərir, onun zəngin həyat yolu, elmi irsi şagirdlərimizə öyrədilir.



Məktəbin uğurları ilbəil artır. Təkcə ötən tədris ilində ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd verən 12 məzundan 7-si tələbə adını qazanıb. Onlardan 3-ü qəbul imtahanlarında 500-700 intervalında bal toplayıb. Müasir informasiya texnologiyaları ilə təchiz olunmuş Şahtaxtı kənd tam orta məktəbi ilə Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən 12 nömrəli məktəb arasında əlaqələr qurulub və həmin məktəbdə də Zərifə xanımın Xatirə Muzeyinin yaradılmasına nail olunub. Həmin muzeyə Şahtaxtı kənd məktəbi tərəfindən Zərifə xanıma aid videomateriallar, dərsliklər, onun həyat və fəaliyyətindən bəhs edən əsərlər hədiyyə edilib.

Sonra Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlının, görkəmli alimin adını daşıyan Şahtaxtı kənd tam orta məktəbinin müəllimlərindən Nilufər Rzayevanın, Arifə Əhmədovanın alimin həyat və fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən çıxışları olub. Çıxışlarda qeyd edilib ki, Zərifə xanım Əliyeva tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanıb. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib.

Sonra məktəbin şagirdləri görkəmli alimə həsr olunmuş şeirləri bədii qiraət edib, elektron lövhəli sinifdə Zərifə xanım Əliyeva haqqında filmə baxıblar.

**Səbuhi HÜSEYNOV**

* * *

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Qadınlar Şurası tərəfindən görkəmli elm xadimi, tanınmış həkim Zərifə xanım Əliyevanın anadan olmasının 94-cü ildönümü münasibətilə konfrans keçirilib.***

Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayeva açaraq "Akademik Zərifə xanım Əliyevanın həyatı və yaradıcılığı" mövzusunda çıxış edib. Qeyd olunub ki, 1923-cü il aprelin 28-də Kəngərli rayonunun Şahtaxtı kəndində dünyaya göz açan Zərifə xanım şərəfli ömür yolu ilə öz adını zəmanəsinin böyük şəxsiyyətləri, ictimai xadimləri və alimləri sırasına əbədi olaraq yazdırıb. O, klinik və nəzəri oftalmologiya sahəsində fundamental tədqiqatlar aparmaqla bu sahənin inkişafının əsasını qoyub.



Konfransda "Azərbaycan oftalmologiyası və Zərifə xanım Əliyeva" mövzusunda çıxış edən Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim-oftalmoloqu Kəmalə Əliyeva bildirib ki, Zərifə xanım Əliyevanın alim kimi qazandığı uğurlar Azərbaycan tibb elmi tarixində xüsusi mərhələ təşkil edir. O, apardığı tədqiqatların yekunu kimi, 1960-cı ildə namizədlik, 1976-cı ildə isə doktorluq dissertasiyalarını uğurla müdafiə edib. Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülən Zərifə xanım keçmiş SSRİ-də oftalmologiya sahəsində ən nüfuzlu mükafat olan SSRİ Elmlər Akademiyasının M.İ.Averbax adına mükafatını alan ilk qadın alim olub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Qadınlar Şurasının üzvü, Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid "Bənzərsiz insan haqqında povest" adlı çıxışında bildirib ki, Zərifə xanım Əliyeva yalnız elm sahəsində göstərdiyi xidmətləri ilə deyil, eyni zamanda XX əsr Azərbaycan dövlətçilik tarixinin ən parlaq siması, müstəqil Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin həyat yoldaşı kimi, görkəmli ictimai xadim, milli və mənəvi dəyərlərimizin misilsiz daşıyıcısı kimi də özündən sonrakı nəsillər üçün əsl örnəyə çevrilib.

Naxçıvan Qızlar Liseyinin müəllimi Gülmira Əsgərova "Zərifə xanımın həmişəyaşar qadın obrazı" mövzusundakı çıxışında qeyd edib ki, Zərifə xanım Əliyeva şəxsiyyətində birləşdirdiyi yüksək insani xüsusiyyətləri, həyat tərzi, insanlarla rəftarı, övladlarına verdiyi tərbiyə, həkim kimi xəstələrə münasibəti ilə insanlığın parlaq siması kimi dəyərlidir. O, öz peşəsi ilə sübut edib ki, Azərbaycan qadını hər bir sahədə bütün uğurların zirvəsində dayana biləcək qədər qüdrətlidir.

Konfransın sonunda Yeni Azərbaycan Partiyasına üzv qəbul olunmuş bir qrup gənc qadına üzvlük vəsiqələri təqdim olunub.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin aprel ayında bir sıra qərarlar qəbul etmişdir.***

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 7 aprel tarixli 22 nömrəli qərarı ilə "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları"na və 23 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası vergi orqanlarının büdcədənkənar fondunun formalaşdırılması və onun vəsaitlərindən istifadə Qaydası"na əlavələr edilmişdir.

Nazirlər Kabinetinin 2017-ci il 17 aprel tarixli 25 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi haqqında Əsasnamə" və 18 aprel tarixli 27 nömrəli qərarı ilə "Elektron qaimə-fakturanın formasının, tətbiqi, uçotu və istifadəsi Qaydaları" təsdiq edilmişdir. Sonuncu qərara əsasən ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən 2018-ci il 1 yanvar tarixindən malların alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim edilir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2017-ci il 18 aprel tarixli 28 nömrəli qərarı ilə "Ünvanlı dövlət sosial yardımı almaq hüququna malik olan aztəminatlı ailələrə məxsus yaşayış evlərinin və mənzillərin icbari sığortası üzrə sığorta haqlarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi Qaydası"nda və 29 nömrəli qərarı ilə "İdman mərc oyunlarının təşkili və keçirilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin eyni tarixli 30 nömrəli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi, 31 nömrəli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"na daxil edilmişdir.

Nazirlər Kabinetinin 2017-ci il 22 aprel tarixli 32 nömrəli qərarı ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 2017-ci ildə yerinə yetirəcəyi aqrotexniki xidmətlərin qiymətləri və yanacaq norması" təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Əhalinin səmərəli məşğulluğu təmin edilmişdir

***Naxçıvan Muxtar Respublikası bu gün özünün inkişaf dövrünü yaşayır. İqtisadi və sosial sahələrdə qazanılmış uğurlar makroiqtisadi göstəricilərin müsbət dinamikasını təmin etmiş, əhalinin yaşayış səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Muxtar respublikanın kompleks inkişafının təmin olunmasında "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası mühüm əhəmiyyətə malik olmuş, sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin təhsil, səhiyyə və digər sosial təminatlarının daha da yaxşılaşdırılması təmin edilmiş, yeni istehsal və xidmət sahələri, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, müasir avtomobil yolları və digər infrastruktur obyektləri istifadəyə verilmişdir.***





2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015 və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır. Belə ki, təkcə 2016-cı ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, traktorçu-maşınçı, xalçaçı, aşpaz köməkçisi peşələri və digər peşələr olmaqla, ümumilikdə, 413 nəfər peşə kurslarına, 93 nəfər isə ixtisasartırma kurslarına cəlb edilmişdir. Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisəsində 12 məhkum qazanxana maşinisti, 12 məhkum bərbər, 10 məhkum isə daş üzərində oyma peşələri üzrə kurslara cəlb olunmuşdur. Bundan əlavə, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 2956 gənc müxtəlif peşələrə yiyələnmişdir.

Muxtar respublikada həyata keçirilən tədbirlər, öz növbəsində, demoqrafik proseslərə müsbət təsir göstərmiş, əhalinin dinamik artımı təmin edilmişdir. 1 yanvar 1996-cı illə müqayisədə əhalinin sayı 32,9 faiz artaraq 2016-cı ilin sonuna 449,1 min nəfəri ötmüşdür.

Aparılmış kompleks tədbirlərin nəticəsidir ki, 1996-cı ildən 1 yanvar 2017-ci il tarixədək muxtar respublikada 88 min 871 yeni iş yeri açılmışdır ki, bunun da 70 faizi daimi iş yerləridir. Son 10 ilin statistikası göstərir ki, muxtar respublikada açılmış 37 min 185 daimi iş yerinin 2357-si yeni yaradılmış müəssisə və təşkilatlarda, 11993-ü mövcud müəssisə və təşkilatlarda, 142-si fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 22693-ü isə fiziki şəxslərdə yaradılmışdır. Həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün rəsmi işsiz statusu alan şəxs qeydə alınmamış, məşğul əhalinin sayı 1995-ci ilin sonu ilə müqayisədə 1,6 dəfə artaraq 233,5 min nəfərə çatmışdır.





Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaratmışdır. Belə ki, 2003-cü ildə muxtar respublikada dövlət sektorunda çalışanların sayı iqtisadiyyatda çalışanların ümumi sayının 23,4 faizini təşkil edirdisə, 2016-cı ilin sonuna bu göstərici 17,8 faizə enmişdir. 2016-cı ildə muxtar respublikada muzdla işləyənlərin sayı 96,4 min nəfər təşkil etmiş və bu göstərici 2003-cü ildəki müvafiq göstəricini 2,3 dəfə üstələmişdir. 2016-cı ildə muzdla işləyən işçilərin 41,5 mini iqtisadiyyatın dövlət sektorunda, 54,9 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

2016-cı ildə muxtar respublikada muzdla işləyənlərin 6,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 16,6 faizi sənaye, 13 faizi tikinti, 17,9 faizi topdan və pərakəndə ticarət, 5,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,8 faizi yaşayışın təşkili və ictimai iaşə, 1 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,5 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,2 faizi peşə, elmi və texniki fəaliyyət, 1,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,6 faizi dövlət idarəetməsi və icbari sosial təminat, 15,7 faizi təhsil, 6,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 4,3 faizi istirahət, əyləncə və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə tədbirlər 2017-ci ilin birinci rübündə də davam etdirilmiş, 640 yeni iş yeri yaradılmışdır. Yaradılmış iş yerlərinin 98 faizi daimi iş yerlərinin payına düşmüşdür. Daimi iş yerlərinin 3 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 1,5 faizi mövcud müəssisə və təşkilatlarda, 95,5 faizi fiziki şəxslərdə yaradılmışdır. Ümumi açılmış yeni iş yerlərinin 26,3 faizi Naxçıvan şəhərinin, 26,1 faizi Şərur, 20,4 faizi Babək, 7,7 faizi Ordubad, 8,1 faizi Culfa, 5,3 faizi Kəngərli, 5 faizi Şahbuz, 1,1 faizi isə Sədərək rayonlarının payına düşmüşdür.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmış, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 413 manatı ötmüşdür. 1995-ci ildə bu göstərici 15,9 manat səviyyəsində olmuşdur. Hazırda bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği dövlət sektorunda 307,6 manat, qeyri-dövlət sektorunda isə 469,1 manat təşkil edir. Muxtar respublikada bir işçiyə hesablanmış ən yüksək orta aylıq əməkhaqqı göstəricisi maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və icbari sosial təminat, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Muxtar respublikamızda artan əhali tələbatına uyğun olaraq müasir istehsal və xidmət müəssisələrinin yaradılması, rəqabətədavamlı məhsul növlərinin istehsalı, səmərəli məşğulluğun təmini üzrə həyata keçirilən kompleks tədbirlər gələcək inkişafımızın daha da uğurlu olacağına imkan yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Xidmət sektoru dayanıqlı inkişafın göstəricisidir

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə xidmətlər bazarı formalaşmağa başlayıb. Əsasən, ticarət, nəqliyyat, rabitə, bank, turizm və sair kimi sahələri özündə birləşdirən bu sektor son onilliklərdə böyük bir inkişaf yolu keçərək iqtisadiyyatda mühüm rola malik olub. Xidmət sektorunun iqtisadiyyatda rolunun artmasının iki əsas səbəbi var. Birincisi, insanların gəlirlərinin çoxalması xidmətlərə xərclənən pulların da artmasına imkan verir. Bu cəhət xidmət sektorunun inkişafını şərtləndirir. İkinci səbəb isə informasiya-kommunikasiya texnologiyalarının dayanmadan inkişafıdır ki, bu da həmin sektorun imkanlarını genişləndirir. Beləliklə, bu iki səbəb xidmət sektorunun iqtisadiyyatda dəyərini durmadan artırır. Maraqlı məqamlardan biri də odur ki, sadalanan səbəblərlə əlaqədar olaraq XX əsrin ikinci yarısından etibarən inkişaf etmiş ölkələrdə xidmət sektoru istehsal sektorunu geridə qoymağa başlayıb. 1980-ci illərdən etibarən isə inkişaf etməkdə olan ölkələrdə baş verən struktur dəyişikliyi xidmət sektorunun həm ümumi iqtisadiyyatda payının, həm də bazar həcminin sürətlə artmasına şərait yaradıb. Hazırda dünyanın əksər ölkəsində ümumi daxili məhsulun formalaşmasında xidmət sektoru daha böyük paya sahibdir.

Klassik iqtisadiyyatda məhsul istehsalı iqtisadiyyatın qan damarı sayılsa da, müasir iqtisadiyyatda eyni fikirlər xidmət sektoru haqqında da deyilir. Dövrümüzdə bu sektor perspektiv vəd edən sahə kimi tanınır və dünya iqtisadiyyatının gəlirli sahəsi kimi böyük cəlbediciliyə sahibdir. Vurğulamaq lazımdır ki, xidmətlərdə informasiya texnologiyalarının sürətlə tətbiqi yeni bir mərhələnin əsasını qoyub. Kompüter və informasiya texnologiyalarından geniş istifadə informasiya mübadiləsinin sürətini artırıb ki, bu da, nəticədə, rabitə xərclərinin aşağı düşməsinə və elektron ticarətin genişlənməsinə səbəb olub. İqtisadçı-ekspertlərin fikirlərinə görə, Amerika Birləşmiş Ştatlarının xidmət bazarı inkişaf etməsəydi, Çin artıq ümumi daxili məhsul istehsalına görə dünyanın ən böyük ölkəsi adını qazanacaqdı. Çin məhz xidmət sektorundakı göstəricilərə görə ABŞ-dan geri qaldığı üçün dünyanın ən böyük iqtisadiyyatına malik ölkə adına sahib ola bilmir.

Digər tərəfdən, müxtəlif sahələri özündə birləşdirən xidmət sektoru ölkənin həm də əsas inkişaf və rifah göstəricilərindən sayılır. Dünya Bankının son illərdə ölkələrin rifah səviyyəsinə görə reytinqini müəyyənləşdirən zaman sosial həyatla xidmət sektorunun səviyyəsi arasında əlaqənin olduğu bir daha öz təsdiqini tapıb. Məlum olub ki, xidmət sektorunda əmək qabiliyyətli əhalinin 60-75 faizi çalışır. Bu sektorda bir qayda olaraq istehsal sahələrinə nisbətən daha çox insan üçün iş yerləri yaradılır. Say çoxluğu ilə bərabər, xidmətlərdə insan amili digər sahələrə nisbətən daha çox ön plana keçir. Yəni xidmət sektorunda çalışan insanların peşəkar hazırlığa malik olması daha çox nəzərə çarpır. Qeyd edək ki, bir ölkənin iqtisadiyyatında xidmət sektorunun payının artması üçün həmin ölkədə adambaşına düşən gəlirin yüksəlməsi şərtdir. Buna görə də inkişaf etməkdə olan ölkələrdə ümumi daxili məhsulda xidmət sektorunun payı 50 faizdən aşağı deyil, bəzi ölkələrdə hətta daha yüksəkdir. Bütün bunlar isə onu deməyə əsas verir ki, xidmət sektoru ölkəmizdə ən çox liberallaşdırılmış sahələrdəndir. Bunun səbəbi onunla bağlıdır ki, müstəqilliyimizin ilk illərindən başlayaraq iqtisadiyyatın bu sektoru digərləri ilə müqayisədə daha cəlbedici olub. Sonrakı illərdə isə həm əhali gəlirlərinin artması, həm də yuxarıda qeyd etdiyimiz kimi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı bu sahənin həcminin genişləndirilməsinə imkan verib. Bunun nəticəsidir ki, muxtar respublikada ötən il ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 87 faizi ötdüyü halda, bu göstərici nəqliyyatda 82, rabitədə 81, ticarət və mehmanxana şəbəkələrində 100 faizə çatıb. Bununla yanaşı, 2016-cı ildə muxtar respublikada sahibkarlara verilmiş kreditlərin 21 faizi xidmət sektorunu əhatə edib. Sahibkarların xidmət sektorunda daha çox cəmlənməsi isə məşğulluq məsələlərinin həll olunmasına öz töhfəsini verir. Nəzərə alaq ki, hazırda ölkəmizdə olduğu kimi, muxtar respublikada da əhalinin mühüm bir hissəsi topdan və pərakəndə ticarət, avtomobillərin və məişət məmulatlarının təmiri, tikinti, turizm, ictimai iaşə, özəl tibb, sosial və digər xidmət sahələrində çalışır.

Xidmət sektorunun inkişafının önəmli tərəflərindən biri də sahibkarlığın inkişafıdır. Hazırda muxtar respublikamızda bu sahənin inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər paralel olaraq xidmət sektorunun inkişafına da öz təsirini göstərir. Çünki insanların gəliri artdıqca xərclərdə əsas pay xidmətlərə yönəlir. Bununla yanaşı, son illərdə muxtar respublikada xüsusilə sənaye və kənd təsərrüfatının, turizmin kompleks şəkildə inkişaf etdirilməsi ilə bağlı atılan məqsədyönlü addımlar xidmət sektorunun yeni bir mərhələyə qədəm qoymasına öz töhfəsini verəcək. Sonda onu da qeyd edək ki, iqtisadiyyatı xarici təsirlərdən qorumaq üçün xidmət sektorunun inkişafı vacibdir. 2014-2016-cı illərdə dünya iqtisadiyyatında baş verən dəyişikliklər göstərdi ki, istehsal sektoru həssas sahədir, onun daxili və xarici risklərə reaksiyası kəskin olur. Xidmət sahələri də xarici risklərə qarşı həssasdır, ancaq bu sahələr düzgün tənzimləndikdə daxili imkanlar hesabına vəziyyəti müsbətə doğru dəyişmək daha asandır. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, xidmət sektoru həm də dayanıqlı inkişafın təminatçısıdır.

**Səbuhi HƏSƏNOV**

# İşğalçı ölkə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmir

*Tam 24 il bundan əvvəl Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasında Kəlbəcərin işğalı ilə əlaqədar 822 saylı qətnamə qəbul olunub. BMT Təhlükəsizlik Şurası həmin qətnamədə təcavüzkar Ermənistanı Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə hörmət etməyə çağırıb. Həmçinin bildirilib ki, başqa ölkələrin ərazilərinin əldə edilməsi məqsədilə güc işlədilməsi beynəlxalq hüquqa ziddir.*

Dağlıq Qarabağla Ermənistan arasında mühüm strateji bölgə olan Kəlbəcərin 2 aprel 1993-cü ildə Ermənistan tərəfindən işğal olunması nəticəsində 500 nəfər həlak olmuş, 300-dən çox insan itkin düşmüş və girov götürülmüş, xalq təsərrüfatına külli miqdarda ziyan dəymişdir. İşğal altında qalmış Kəlbəcər rayonunun təbii sərvətləri 20 ildən çoxdur ki, talan edilir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan Söyüdlü (Zod), ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları, sənaye əhəmiyyətli civə ehtiyatları ermənilər tərəfindən qanunsuz şəkildə istismar edilir, qiymətli ağac növləri kəsilərək Ermənistana aparılır. Bununla yanaşı, Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da işğal ərazisindədir. Bu rayon öz ərazisində çox sayda qədim tarixi memarlıq abidələrini, ziyarətgahları, muzeyləri, qalaları, məscidləri qoruyub saxlayırdı. Həmin abidələr işğal zonasında qalaraq Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmışdır.

Təəssüf ki, bu gün də təcavüzkar Ermənistan BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə əhəmiyyət vermir, aqressiv işğalçılıq siyasətinə son qoymur. İrəvanda hakimiyyətdə olan terrorçu, cinayətkar rejim nəinki bu qətnaməni, BMT Təhlükəsizlik Şurasının Ağdamın işğalından sonra 1993-cü il iyulun 29-da qəbul etdiyi 853, Füzuli, Cəbrayıl, Qubadlının zəbt edilməsi ilə əlaqədar 1993-cü il oktyabrın 14-də qəbul olunan 874, nəhayət, Zəngilanın Ermənistan tərəfindən tutulması ilə əlaqədar 12 noyabr 1993-cü il tarixli 884 saylı qətnamələri də yerinə yetirmir.

Problemlə əlaqədar olaraq Avropa Şurası və Avropa İttifaqı tərəfindən də qərarlar qəbul edilmişdir. Bu qərarlarda da Azərbaycan torpaqlarının işğal edildiyi vurğulanmış, lakin münaqişənin həlli ilə bağlı adekvat addımlar atılmamışdır. Avropa İttifaqının problemə və işğal edilən torpaqlara dair 4 sentyabr 1993-cü il tarixli qərarında işğal edilmiş bölgələrin adları sıralanaraq, işğalçının bu bölgələrdən çıxması tələb edilmişdir. Amma sənəddə işğal olunan və işğal edən ölkə haqqında heç bir ifadəyə yer verilməmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin BMT üçün əsas olmasını vurğulayaraq, onların 20 ildən çox bir müddət keçməsinə baxmayaraq, hələ də yerinə yetirilməməsini ədalətsizlik və ikili standart adlandırmışdır. Bu vəziyyətin dözülməz olduğunu vurğulayan Azərbaycan Respublikasının Prezidenti dövlətimizin prinsipial mövqeyini qəti şəkildə bəyan etmişdir: ***"Azərbaycan öz torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizləmənin nəticələri ilə heç zaman barışmayacaqdır. Biz yaranmış bu vəziyyətlə barışa bilmərik. Status-kvo bizi qane etmir. Status-kvo ədalətli şəkildə dəyişməli, erməni işğalçı qüvvələri torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır".***

Bu gün biz qəti şəkildə əminik ki, işğal altında qalan torpaqlarımıza qayıdacaq, öz ata-baba yurd yerlərimizi yenə də abadlaşdıracağıq. Necə ki 2016-cı ilin aprel döyüşləri Böyük Qayıdışa bir işarədir. Cocuq Mərcanlının təhlükəsizliyi təmin olunduqdan sonra Prezident, Ali Baş Komandan cənab İlham Əliyev daha bir qərara imza atdı. İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında 2017-ci il 24 yanvar tarixli Sərəncam nəinki bu kəndin və cəbrayıllıların, bütün Azərbaycan xalqının ürəyindən xəbər verdi. İşğal altındakı digər torpaqlarımız da öz sakinlərinin həsrətindədir.

Ordumuzun aprel zəfəri, ölkə rəhbərinin Cocuq Mərcanlının bərpası ilə bağlı imzaladığı Sərəncam düşmən tapdağı altındakı torpaqlarımızın azad olunacağı günün ilk müjdəçiləridir. Azərbaycan Ordusunun qüdrəti, gücü, xalqın iradəsi və beynəlxalq ictimaiyyətin Azərbaycanın dünya üçün hansı əhəmiyyət kəsb etdiyini başa düşməsi bunu bir daha təsdiq edir.

**Rauf KƏNGƏRLİ**

## "Naxçıvan Dövlət Universiteti 50 ildə" adlı elmi konfrans

***Konfransı rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq ali təhsil ocağının 50 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını elmin, təhsilin inkişafına göstərilən dövlət qayğısı kimi dəyərləndirib.***

"Naxçıvan Muxtar Respublikasında elmin inkişafında Naxçıvan Dövlət Universitetinin rolu" adlı məruzə ilə çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev bildirib ki, Naxçıvan Dövlət Universiteti muxtar respublikada digər elm və təhsil müəssisələrinin yaranması, inkişafı və formalaşmasında, onların kadr potensialı ilə təmin olunmasında əhəmiyyətli rol oynayıb. Hazırda Naxçıvan Dövlət Universitetində 385 nəfərdən ibarət professor-müəllim heyəti çalışır ki, onlardan 2 nəfəri AMEA-nın müxbir üzvü, 18 nəfəri elmlər doktoru, 175 nəfəri isə fəlsəfə doktorudur. Universitetdə bakalavr, magistr, fəlsəfə və elmlər doktoru hazırlığı işi yüksək səviyyədə aparılır.

Konfransda çıxış edən İqdır Universitetinin rektoru, professor Mehmet Hakkı Alma rəhbərlik etdiyi universitetin strukturu və fəaliyyəti haqqında məlumat verib. Rektor universitet rəhbərliyini və müəllim-tələbə kollektivini yubiley münasibətilə təbrik edib.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli "Naxçıvan Muxtar Respublikasında müəllim kadrlarının hazırlığında Naxçıvan Dövlət Universitetinin rolu" adlı məruzə ilə çıxış edərək bildirib ki, universitetin məzunları bu gün Azərbaycanda milli dövlət quruculuğunun müxtəlif sahələrində yaxından iştirak edirlər.

"Naxçıvan" Universitetinin rektoru, professor İsmayıl Əliyev "Naxçıvan Dövlət Universitetinin ali təhsil müəssisələri sırasında yeri" adlı məruzə ilə çıxış edib. Məruzədə qeyd olunub ki, ali təhsil ocağı böyük inkişaf yolu keçərək qədim diyarın əsas elm, təhsil və mədəniyyət mərkəzinə çevrilib. Universitet Azərbaycanın 42 ali təhsil ocağı arasında özünün həm ənənələri, həm nailiyyətləri ilə seçilir.

Konfrans üç bölmə iclası ilə işini davam etdirib.

**Nərmin CABBAROVA**

## Rus dili və ədəbiyyatı fənni üzrə IX ümumrespublika olimpiadasının zona turu keçirilib



*Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə VII-VIII sinif şagirdləri arasında rus dili və ədəbiyyatı fənni üzrə ümumrespublika olimpiadasının Naxçıvan Muxtar Respublikası üzrə zona turu təşkil olunub.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Mahir Əliyev çıxış edərək muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb.

"Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Valentin Denisov çıxışında Azərbaycan məktəblərində rus dilinin tədris olunmasını iki ölkə arasında dostluq münasibətlərinin göstəricisi kimi dəyərləndirib, belə tədbirlərin Rusiya və Azərbaycanın qarşılıqlı əlaqələrinin inkişafında böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb, olimpiada iştirakçılarına uğurlar arzulayıb.

Valentin Denisov olimpiadanın keçirilməsində göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Tədbirin ədəbi-bədii hissəsində məktəbin şagirdlərinin ifasında Azərbaycan və rus dillərində şeirlər və mahnılar səsləndirilib.

Şagirdlərə olimpiadanın qaydaları haqqında məlumat verildikdən sonra olimpiadanın zona turu başlayıb.

Qeyd edək ki, rus dili və ədəbiyyatı fənni üzrə IX ümumrespublika olimpiadası Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi, "Rossotrudniçestvo" Agentliyinin Azərbaycandakı nümayəndəliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycanın Rusdilli Təhsil Müəssisələri Müəllimləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilir.

**Tural AĞAYEV**

# Sərhəd bölgəsində təhsilin inkişafı diqqət mərkəzindədir

***Muxtar respublikada təhsil siyasətinin diqqətdə saxlanılması, bu sahəyə prioritet istiqamət kimi baxılması öz bəhrələrini verməkdədir. Hər il regionda bir neçə yeni məktəb binasının istifadəyə verilməsi, təhsil ocaqlarının maddi-texniki bazalarının gücləndirilməsi şagirdlərin muxtar respublika və ölkə səviyyəsində keçirilən olimpiadalarda, digər bilik yarışmalarında, idman birinciliklərində, məzunların qəbul imtahanlarında yüksək nəticələr qazanılmasını təmin edir.***



Sərhəd bölgəsi Sədərək rayonunun timsalında da bunu görmək olar. Müstəqilliyəqədərki və müstəqillik qazandığımız illərdə bölgənin təhsil mühitini müqayisə etsək, həm şərait, həm də keyfiyyət baxımından böyük fərqi görərik. Sədərəkdə sovet dönəmində belə dövrün tələblərinə cavab verən məktəb binaları tikilməyib. Uyğunlaşdırılmış binalardan istifadə edilib. Bu da, sözsüz ki, təhsilin keyfiyyətinə öz təsirini göstərib. Təhsil ocaqlarının ixtisaslı kadrlarla təminatı da ürəkaçan olmayıb. Keçid dövrü adlandırdığımız zaman kəsiyində adıçəkilən sahələrdə vəziyyət bir qədər də çətinləşib. Bölgənin sərhəddə yerləşməsi, məlum hadisələrin başlaması ilə vəziyyətin daha da ağırlaşması burada o dövrün təhsili barədə müsbət mənada nə isə deməyə imkan verməyən amillərdir. O dövrdə Sədərəkdə əsas məsələ yurd yerinin qorunması idi, sədərəklilər sərhədçi ömrü yaşayırdılar, digər sahələr kölgədə qalmışdı. Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı, bir neçə dəfə Sədərəkdə olması, sərhəd bölgəsinin sakinləri ilə görüşməsi, onların problemləri ilə maraqlanması tədricən burada həyatın bütün sahələrinin canlanmasına gətirib çıxardı. Həyat öz axarına düşməyə, insanların sabaha olan inamı güclənməyə başladı. Təhsil sahəsi də özünün inkişafına qədəm qoydu. Bu gün qazanılan uğurların təməli də məhz o dövrdə möhkəmləndirilib.

Bu gün Sədərəyin təhsil müəssisələri hərtərəfli qayğı ilə əhatə olunub. Maddi-texniki bazası gücləndirilib. Kadr təminatı xeyli yaxşılaşdırılıb. Bununla bağlı rayon Təhsil Şöbəsinin müdiri Malik İsmayılov deyir ki, təhsilin səviyyəsinin yüksəldilməsində başlıca amillərdən biri müasir tədris şəraitinin yaradılmasıdır. Bu gün Sədərək rayonunda bütün təhsil müəssisələri – dörd ümumtəhsil, dörd məktəbdənkənar, iki məktəbəqədər təhsil ocağının hamısı yeni binalarda fəaliyyət göstərir. Cari tədris ilindən isə məktəblərdə beşyaşlıların hazırlıq qrupları fəaliyyətə başlayıb. Beşyaşlı 47 uşaq Sədərək məktəblərində təhsilə cəlb edilib. Onlarla ixtisasartırma kursu keçmiş müəllimlər məşğul olurlar. Ümumtəhsil məktəblərində 147 kompüter, 15 elektron lövhədən istifadə edilir, 1229 şagirdin təhsili ilə 98 müəllim məşğul olur. Ötən tədris ilində məzun olmuş 72 nəfərdən 48-i ali məktəblərə qəbul olmaq üçün sənəd təqdim edib. Onlardan 23-ü tələbə adını qazanıb. Ali məktəblərə qəbulda 2 nəfər 600-700, 3 nəfər 500-600 intervalında bal toplayıb. Bir nəfər Heydər Əliyev adına Hərbi Liseyə, bir nəfər isə Sərhəd Qoşunları Akademiyasına qəbul olunub. 17 məzun isə orta ixtisas məktəblərində təhsillərini davam etdirmək hüququ qazanıb. Onlardan 7-si hazırda Tibb Kollecinin tələbəsidir. Bu, son illər üçün nisbətən yüksək nəticə olsa da, rayonun pedaqoji kollektivləri bunu son hədd hesab etmirlər. Onlar cari ilin yekunlarının həm keyfiyyət, həm də kəmiyyət baxımından daha yüksək olması əzmilə yaradılan şəraitdən səmərəli istifadə etməyə, bununla intellektual səviyyəli məzunlar yetişdirməklə göstərilən qayğıya əməli işləri ilə cavab verməyə çalışırlar.

Pedaqoji kollektivlərin üzvləri yaxşı bilirlər ki, məktəbin vəzifəsi təkcə savadlı məzun deyil, həm də vətənpərvər gənclik yetişdirməkdir. Dövlətimiz bu məsələnin həlli üçün də şərait yaradıb. Müəllimlər bu vəzifələrin öhdəsindən gəlmək üçün yaradılmış şəraitdən səmərəli istifadə etməyə, yeni təlim üsullarından bəhrələnməyə, onları öz işlərində tətbiq etməyə çalışırlar. Bu gün müasir pedaqogika, məktəbşünaslıq özünün yeni inkişaf mərhələsindədir. Ona görə də yeni təlim metodlarının tədris prosesində tətbiqi zamanın tələbidir. Bunsuz yeni uğurlar qazanmaq mümkün deyil. Muxtar respublikanın bütün təhsil müəssisələrində olduğu kimi, Sədərək rayonunun məktəblərində də bu tələb diqqət mərkəzindədir. Sınanılmış və yeni yaradılmış təlim üsulları köhnə, şablon metodların üstündən xətt çəkib. Yəni zamanla yanaşı, o da inkişafdadır. Bu baxımdan bugünkü şagird şəxsiyyətdir və o, hafizə məktəbinin dərsləri ilə ayaqlaşa bilməz. Ona görə də məktəblərdə 9 ildir ki, təbliğ olunmuş kurikulum öz bəhrələrini verməkdədir.

O da vurğulanmalıdır ki, vətənpərvər gəncliyin yetişdirilməsində sinifdənxaric və məktəbdənkənar tədbirlər böyük əhəmiyyət daşıyır. Tarixi, əlamətdar və bayram günlərinin məktəblərdə qeyd olunması, kitab müzakirələrinin keçirilməsi məktəb həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Ulu öndər Heydər Əliyevin hamımız üçün örnək olan həyat və siyasi fəaliyyətinin dərindən öyrədilməsi həyata keçirilən tədbirlər sırasında başlıca yer tutur. Son illərdə muxtar respublikada tariximizin, mədəniyyətimizin, milli və mənəvi dəyərlərimizin araşdırılması, tədqiqi, bu sahədə yeni nəşrlərin işıq üzü görməsi qədim tariximizin düzgün öyrənilməsi istiqamətində atılan böyük addımlardır. Sədərək rayonunun pedaqoji kollektivləri bu məsələlərin şagirdlərə çatdırılmasında fəallıq göstərirlər. Şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi sərhəd bölgəsində xüsusi önəm kəsb edir. Ona görə də bu istiqamət də işdə əsas götürülüb. 1988-ci ildə başlanan məlum hadisələri bugünkü məktəblilər görməyiblər. Dərsdənkənar məşğələlərdə o hadisələr, həmin hadisələrin başvermə səbəbləri, sədərəkli şəhidlər haqqında söhbətlər aparılır, veteranlarla görüşlər təşkil olunur.

Onu da deyək ki, son illər Sədərək məktəblərinin rayon, muxtar respublika və ölkə səviyyəsində keçirilən olimpiada, viktorina, idman yarışlarında qazandıqları uğurlar da artmaqdadır. Belə ki, ötən tədris ilində müxtəlif fənlər üzrə keçirilən ümumrespublika olimpiadasında 8 şagird iştirak edib. "Kitab bilik mənbəyidir" müsabiqəsinin respublika turuna qatılan 6 məktəblinin 2-si birinci və üçüncü yerlərə sahib olub. Naxçıvan şəhərində keçirilən "Naxçıvan müstəqillik illərində" inşa yazı müsabiqəsində Pəri İsmayılova birinci yerə çıxıb. Bu tədris ilində də belə uğurlar az olmayıb.

"Bayrağımız qürur mənbəyidir", "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və digər tədbirlər yaddaqalan olub, məktəblilər həmin tədbirlərdə fəallıq göstərib, mükafatlara layiq yerlər tutublar. Tədbirlərin təşkilində ona çalışılır ki, şagirdlər doğulduqları, yaşadıqları torpağın hər bir naxçıvanlı üçün müqəddəs bir yer olduğunu, bu torpaqda milli və mənəvi dəyərlərimizin böyük ehtiramla qorunduğunu və digər məsələləri dərindən dərk etsinlər, Vətənə layiqli vətəndaş olmağın şərəfini duysunlar.

*Belə tədbirlərdə pedaqoji kollektivlərin üzvlərinin öz vəzifə borclarına məsuliyyəti getdikcə artır ki, bu da təhsilin səviyyəsinin yüksəldilməsində mühüm əhəmiyyət daşıyır.*

**Muxtar MƏMMƏDOV**

Yazmasaq, olmur

## Vicdanını pula satan nadanlar...

*Qədim yunan müdriki Sinoplu Diogen günün-günortacağı əlində lampa ilə dolaşan zaman ondan nə axtardığını soruşanlara "İnsan axtarıram", – deyə cavab verir.*

Dostlar, bu, həmin Diogen idi ki, o, bir gün şəhərin mərkəzində moizə deməyə başlayır. Ancaq kimsə ona qulaq asmır. Bunu görən filosof quş kimi cikkildəyir. Bundan sonra ətrafına xeyli avara toplanır və maraqla onu dinləyirlər.

– Baxın, afinalılar, budur sizin ağlınızın qiyməti, – deyə Diogen onlara irad tutur. O deyir: – Sizin üçün ağıllı söhbət edəndə, qızıl xırdalayanda məni dinləmədiniz, ağılsız quş kimi cikkildəyəndə isə ağzınızı ayırıb dinləməyə başladınız...

Əslində, bizim Diogen müəllim hələ əsrlər əvvəl insan problemini qabardırdı ki, həmin problem elə əsrlər əvvəl olduğu kimi, əsrlər sonra da mövcuddur. Və həmin dövrlərdə olduğu kimi, elə indi də bir insanın psixologiyasını, düşüncəsini dəyişmək bəzən bir ictimai quruluşu dəyişməkdən çətin olur. Bu çətinliyi yaradan əsas faktorlardan biri də vicdan faktorudur ki, hələ əsrlər əvvəl Aristotel deyib: "İradənə hakim ol, lakin vicdanına əsir"...




İş budur ki, ötən həftə Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları nə iradəsinin hakimi, nə də vicdanının əsiri olmağı bacarmayan bir neçə vicdanını "dincə qoyanın" yaxasından möhkəmcə yapışdı. Və beləcə, onları gizləndikləri "yuvadan" çıxardılar.

Bəs, həmin şəxslər kim idi?

Dərhal və vaxt itirmədən də cavab verək: Vicdanını pula satan nadanlar, kələkbazlar, dələduzlar və bir az da irəli gedib deyəcəm ki, şarlatanlar...

Məsələ budur ki, həmin şəxslər külli miqdarda keyfiyyətsiz dərman vasitələrini muxtar respublikaya qanunsuz olaraq gətirib, sonra da xımır-xımır satışını təşkil edib, insanların cansağlığı ilə oynayıblar. Özü də necə...

Təhməz Həmzəyev adlı heç bir təhsili və bu fəaliyyət üzrə icazəsi olmayan birisi hətta özünü sosial şəbəkələrdə insanlara həkim kimi təqdim edib. Ətrafına yığdığı özünə oxşarlarla birgə insanları aldadıb, onlara əsassız "diaqnoz" qoyub, bu əndrabadi diaqnozlardan sonra saxta dərmanları sadə adamlara "sırıyıblar". Hətta bu "Nobel mükafatçıları" – Ürfan İmranlı, Qiyas Hüseynov, Əsəd Cəfərov vətəndaşlara özlərini "androloq", "psixoloq", "kardioloq", nə bilim nə "oloq" kimi təqdim ediblər.

Onların Naxçıvan televiziyasında nümayiş olunan kadrlarına baxanlar, yəqin ki, görüblər. Nəinki "androloq", "kardioloq" onların qabaqlarına altı keçi qatsanız, inanın ki, axşam evə qayıdanda baxassız ki, beşini itirib gəliblər.

Hətta onlara aldanıb müraciət edən hamilə qadına özlərini "ginekoloq", bəli, məhz ginekoloq kimi tanıdıblar. Həmin qadına müayinə və müalicə təyin ediblər. Onurğa sütununda əyrilik olan qadının "müalicəsi" üçün isə ondan kürəyinin şəkillərini alıblar.

Bəli, dostlar, bunlar bizim dövrümüzün "Dəllək Hüseyn"ləridir ki, vaxtilə Mirzə Cəlil özünün "Dəllək" hekayəsində belələrini "güllələmişdi". Hekayənin qısa məğzi bu idi ki, Sadıq kişinin 10 yaşlı oğlu Məmmədvəli gözlərinin ağrısı kəssin deyə, burnunu qanadır və sonra qan dayanmır. Sadıq kişi də doxtura yox, birbaşa dəllək Hüseynin yanına qaçıb əlac istəyir: "Sadıq kişi dükanın qabağında durub salam verdi. Usta Hüseyn kişini görcək onu müştəri hesab etdi və qoltuq cibindən aynanı çıxardıb tutdu Sadıq kişinin qabağına. Sadıq kişi aynanı alıb və gözlərini yumub bir salavat zikr etdi və aynanı əvvəl sağ çiyninin, sonra sol çiyninin qabağına aparıb tutdu üzünün müqabilində və gözlərini açıb sol əli ilə başladı qırmızı saqqalını tumarlamağa və bir dəfə də salavat çevirib, aynanı qaytardı Usta Hüseynə və dedi: "Ay Usta Hüseyn, bizim Məmmədvəlinin burnu qanayıb. Nə əlac edirik qan kəsilmək bilmir. Arvad məni yalvara-yalvara sənin yanına göndərib, bəlkə sən bir çarə tapasan".

Usta Hüseyn Sadıq kişidən aynanı alıb əvvəl ona




təklif etdi ki, girsin dükana və otursun səkinin üstündə. Sadıq kişi dükana girib oturandan sonra, Usta Hüseyn onun yavığına yeriyib sağ əlini uzatdı və Sadıq kişinin börkünü götürüb qovzadı yuxarı.

Sadıq kişi altdan yuxarı baxırdı Usta Hüseynin üzünə. Usta başını bulaya-bulaya dedi:

"Ax, ax, vay, vay! Yazığım gəlir gününə, ay Sadıq kişi! Bilmirəm sənin axırın nə günə qalacaq! Ay kişi, ya adını erməni qoy, xalq bilsin ki, sən müsəlman deyilsən, yoxsa əgər müsəlman olmaq istəyirsən, qardaş, bu müsəlmançılıq deyil ki, sən eliyirsən. Kişi, utanmırsan başuvun tükünü bu qədər uzadıb qırxdırmırsan? Hələ xəcalət çəkməyib deyirsən ki, Məmmədvəlinin burnunun qanı kəsilmir? O, Allahın qəzəbidir ki, səni tutub. Yoxsa harda görsənən şeydir ki, burnunun qanı kəsilməyə? Sənintək müsəlmanlar bundan da artıq bəlaya giriftar olacaqlar!

...Usta Hüseyn Sadıq kişinin başını qırxıb qurtardı. Sadıq kişi börkünü qoydu başına, iki qəpik çıxarıb uzatdı Usta Hüseynə və dedi:

– Usta, Allah atana rəhmət eləsin.

Və Usta Hüseyn pulu alıb cavab verdi:

– Allah sənin də atana rəhmət eləsin.

Sadıq kişi üz qoydu evinə getməyə.

Həyətə girib Sadıq kişi gördü ki, oğlunun qanı çoxdan kəsilib.

Məmmədvəli bir uzun ağacdan at qayırıb minmişdi, həyəti o tərəfə çapırdı, bu tərəfə çapırdı və hərdənbir at kimi kişnəyirdi".

Əlqərəz, indi bizim bu dəllək Təhməz və onun "balavoyları" Mirzə Cəlilin dəllək Hüseyninin arxasına beş təpik vuracaq nadürüstlüklər ediblər. Hətta Çinin özlərinə oxşar saxta dərman və tibbi cihazlarını 5-10 qat bahasına camaata "sırıyıblar".

İndi, dostlar, siz deyin, belələrinə nə ad verək?! Təbii ki, nə ad qoysan yaraşar... Hələ o tərəfə də keçər.




Gəlin özümüzə azacıq əziyyət verib bir pəncərəmizdən başımızı çıxarıb ətrafımıza baxaq... O dəqiqə görəcəyik ki, təkcə son illərdə Naxçıvan şəhərində, eləcə də kəndlərdə yüzlərlə müasir xəstəxana, həkim ambulatoriyası, feldşer-mama məntəqələri tikilib əhalinin istifadəsinə verilib. Dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan tibbi cihazlar istifadəmizdədir. Bir neçə il əvvəl müayinə və müalicə üçün xaricə üz tutan zaman Naxçıvanın gömrük qapılarında növbə gözləyirdiksə, indi bu da yoxdu. Gəlin bütün bunların qədrini hamılıqla bilək və bu cür nataraz əməllərə qarşı barışmaz olaq.

Təbii ki, tək belələrinə qarşı yox, həm də işini yaxşı öyrənməyən, 40 il əvvəl aldığı qırmızı diploma fəxr edən və bu 40 ildə bir dəfə kitab üzü açmayan, yeni tibbi texnologiyanı öyrənməyən həkimlərə qarşı da ictimai qınaq yaradaq. Hansı ki onlar 40 il əvvəl olduğu kimi, elə indi də adamın üzünə baxıb "diaqnoz" qoymaqla məşğuldurlar. Təəssüf ki, xəstəliklə yox, xəstənin özü ilə maraqlanan, apteklərlə "işgüzar" əlaqəyə girib adi bir ampisillinlə, çobanyastığı dəmləməsi ilə sağalacaq olan xəstəyə sicilləmə – 50-100 manatlıq resept yazan "doxtur"lar hələ də var...

Bütün bunlarla yanaşı, savadlı, peşəkar, ağ xalata yaraşan həkimlərimizlə (beləl追 yüzlərlədir) fəxr edək və onları nümunə göstərək.

Biz muxtar respublikanın təhlükəsizlik orqanı əməkdaşlarına bu cür xoşagəlməz hallarla mübarizələrinə görə "sağ olun" deməklə yanaşı, özümüz də elə adamlara qarşı ciddi mübarizə aparmalı, onları ictimai qınaq məngənəsində boğmalıyıq.

Axı bizə "dəlləklər" yox, həqiqi həkimlər lazımdır...

**Sahil TAHİRLİ**
*jurnalist*

***Kəngərli rayonunun 38 sakini tərəfindən qədim mədəniyyətimizi və tariximizi əks etdirən məişət əşyaları, çıraq, küpə, odun ütüsü, patefon və digər nümunələrdən ibarət 63 eksponat rayon Tarix-Diyarşünaslıq Muzeyinə təqdim edilib.***

## Tarix-Diyarşünaslıq Muzeyinə sakinlər tərəfindən 63 eksponat təqdim olunub



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, muxtar respublikada 29 muzey və muzeytipli müəssisə fəaliyyət göstərir. Burada da 114 mindən çox xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən maddi-mədəniyyət nümunələri mühafizə olunaraq qorunub saxlanılır. Müstəqillik illərinə qədər əgər muxtar respublika ərazisində 13 muzey fəaliyyət göstərirdisə, müstəqillik dövrünə qədəm qoyduqdan sonra Naxçıvanın tarixini və görkəmli şəxsiyyətlərinin yaradıcılığını əks etdirən 16 muzey yaradılıb. Son illərdə muzeylərimizə göstərilən dövlət qayğısının təzahürü olan muzey sahəsində kadr yetişdirilməsi işi də xüsusilə qeyd edilməlidir.

Vurğulanıb ki, bu gün muzeylərimizi ziyarət edənlərin də sayı əhəmiyyətli dərəcədə artıb və muzey işçilərinin üzərinə daha böyük vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən muxtar respublikanın nazirlik, komitə və təşkilatlarının kollektivləri mütəşəkkil şəkildə muzeylərimizi ziyarət edirlər. Keçən il muxtar respublikanın muzeylərini 321 minədək, bu ilin 3 ayı ərzində isə 92 minədək vətəndaş ziyarət edib ki, bunların arasında həm yerli əhali, həm Azərbaycanın digər regionlarından muxtar respublikamıza gələn qonaqlar, həmçinin xarici vətəndaşlar da olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı əsasən bu gün muxtar respublikamızda olan muzeylər ilə orta məktəblər arasında distant dərslər keçilir, həmçinin yetişməkdə olan gənc nəsil üçün açıq dərslər təşkil edilir.

"Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi də tariximizin və mədəniyyətimizin yaşadılması istiqamətində öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır", – deyən Natəvan Qədimova bildirib ki, nazirlik tərəfindən muzeylərimiz üçün maddi-mədəniyyət nümunələrinin toplanması işi də daim diqqətdə saxlanılır və bu işdə muxtar respublika sakinləri yaxından iştirak edirlər. Ötən il ərzində muzeylərə 1500-ə yaxın, son üç ay ərzində isə 266-ya yaxın eksponat daxil olub ki, bu eksponatlar da könüllü halda muzeylərə və nazirliyə hədiyyə edilib. Son illərdə, bütövlükdə, tariximizə, mədəniyyətimizə göstərilən dövlət qayğısının nəticəsidir ki, bu gün maddi-mədəniyyət nümunələrinin toplanması işində vətəndaşlarımız səy göstərirlər.

Sonra eksponatları muzeyə hədiyyə edənlərdən Qarabağlar kənd sakini Aygün Bağırova, Çalxanqala kənd sakini Bəhman Məmmədov, Şahtaxtı kənd sakinləri Səbuhi Əsədov, Ramiz Şükürov çıxış edərək bildiriblər ki, maddi-mədəni irsimizin qorunması baxımından belə tədbirlər əhəmiyyətlidir. Bu eksponatların muzeylərimizə verilməsi zəngin mədəni irsimizin yaşadılması və gələcək nəsillərə çatdırılmasına xidmət edir. İnanırıq ki, bu işlər gələcəkdə də davam etdiriləcəkdir.

*Qeyd edək ki, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 17 iyul tarixli Sərəncamına əsasən yaradılıb. Hazırda muzeydə rayonun tarixi ilə bağlı 2600-dən çox eksponat qorunub mühafizə olunur. Bu eksponatlardan 800-ə yaxını ekspozisiyada nümayiş etdirilir.*

**Əli RZAYEV**

## Ümumdünya Əməyin Mühafizəsi Günü qeyd edilib

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü ilə əlaqədar tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, bu gün ölkəmizdə insanların hüquqlarının qorunması, onların əməyinin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təşkili dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Muxtar respublikamızda da işçilərin hüquqlarının qorunması və əməyinin mühafizəsi daim diqqət mərkəzində saxlanılan məsələlərdəndir. 2011-ci il iyunun 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci il fevralın 27-də tikinti sektorunda əməyin təşkili və təhlükəsizlik qaydalarına riayət olunması, 2014-cü il fevralın 21-də tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların uğurlu icrası işçi hüquqlarının təminatı, o cümlədən əməyin mühafizəsi standartlarının tətbiqi sahəsində müsbət göstəricilərin artmasına səbəb olub. Əməyin mühafizəsi və yerlərdə təhlükəsizlik qaydalarına əməl olunması Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əsas vəzifələrindən biri olduğundan şura tərəfindən 2016-cı ildə 50-yə yaxın obyektə baxış keçirilib, maarifləndirmə tədbirləri aparılıb.

Tədbirdə şuranın əməkdaşlarından Ceyhun Məmmədov, Hüseyn Quliyev, Ümbülbanu Musayeva, Əfsanə Hüseynova, Coşqun Zahirov, Sənan Hüseynov və başqaları çıxış edərək bildiriblər ki, muxtar respublikamızda əməyin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər insan amilinə göstərilən diqqət və qayğını özündə ehtiva edir. Muxtar respublikamızda təhlükəsiz əmək şəraitinin təmin olunması prosesində dövlət qurumlarının, işçilərin və işəgötürənlərin iştirak etməsi təqdirolunası amillərdir.

**Xəbərlər şöbəsi**

**Bildiriş**

Naxçıvan Şəhər Uşaq Təşkilatı fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 346